Azərbaycan Respublikasının Prezidenti
Cənab İlham Heydər oğlu Əliyevə

Görkəmli siyasi xadim, dahi insan Heydər Əlirza oğlu Əliyevin uzun illər ərzində Azərbaycan Respublikasına və xalqımıza göstərdiyi misilsiz və saysız xidmətlərinin bariz nəticəsi azad, müstəqil Azərbaycan dövlətinin yaranmasına, onun inkişaf yoluna qədəm qoymasına və parlaq gələcəyinin təməl daşının bərqərar olmasına səbəb olmuşdur.

Azərbaycan Respublikası, Rusiya Federasiyası, Ukrayna, Türkiyə və İran Respublikalarının görkəmli alimləri ilə təmsil olunan redaksiya heyəti möhtərəm Heydər Əliyev zəkasının parlaq davamçısı – İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibəti ilə təbrik edir, ona Respublikamızın daha da qüdrətlənməsi naminə göstərdiyi şərəfli işlərində uğurlar arzulayır.

Xalqımız Respublikamızın dünya birliyinə inteqrasiyasının həyata keçməsini, ümdə arzularının reallığa çevrilməsini yalnız və yalnız gənc, dünya birliyi siyasi xadimləri sırasında öz yeri olan, nüfuzlu, qüdrətli Prezidentimiz İlham Əliyevlə bağlayır, onun siyasi kursunu dəstəkləyir və onunla birlikdə, sabaha böyük inamla irəliləyir.

Redaksiya heyəti